# 3-cü ELAN

# 11-ci BEYNƏLXALQ HCH VƏ PESTİSİD FORUMU

## 07-09 Sentyabr, 2011-ci il,
## Azərbaycan Respublikası, Qəbələ
## Qafqaz Riverside Oteli

### "ŞƏRQİ AVROPA, QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİNDƏ (EECCA) KÖHNƏLMİŞ PESTİSİD EHTİYATLARININ VƏZİYYƏTİ: AVROPA BİRLİYİ ÖLKƏLƏRİNİN TƏCRÜBƏSİ"

**TƏŞKİLATÇILAR:**

- Beynəlxalq HCH və Pestisid Assosiasiyası (İHPA), Hollandiya
- Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi
- Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi
- Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
- Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi
- Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi
- Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi
- Azərbaycan Respublikası Milli Elmlər Akademiyası
- Bakı Dövlət Universiteti
- ECORES Analitik Ekoloji İnformasiya Agentliyi

## QƏBUL EDƏN TƏŞKİLATLAR:

- Beynəlxalq HCH və Pestisid Assosiasiyası (İHPA), Hollandiya
- Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi
- Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi
- Mərkəzi və Şərqi Avropanın Davamlı Üzvi Çirkləndiricilər (DÜÇ) üzrə Regional Mərkəzi, RECETOX, Masarik Universiteti, Brno, Çexiya
- Almaniyanın Federal Ətraf Mühit Agentliyi (UBA)

## SPONSORLAR:

- Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi
- "Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələrində (EECCA) köhnəlmiş pestisidlər və DÜÇ üzrə potensialın gücləndirilməsi" FAO-GEF layihəsi
- GTZ Kimyəvi Təhlükəsizlik Layihə Konvensiyası
- Stokholm Konvensiyasının Katibliyi

## FORUM HAQQINDA QISA MƏLUMAT:

11-ci Beynəlxalq HCH və Pestisidlər Forumunun məqsədi Şərgi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələrində, həmçinin dünyanın bir çox digər ölkələrində köhnəlmiş pestisid qalıqlarının miqdarı ilə bağlı problemlərin təqdimatı və müzakirəsi, 9-cu Forumda müvəffəqiyyətlə başlamış və 10-cu Forumda davam etdirilmiş onların hal-hazırkı miqdarı, inventarlaşdırılma və zərərsizləşdirilmə məsələsinin həllindən ibarətdir. Bu Forum DÜÇ üzrə Stokholm Konvensiyası və digər əlaqəli beynəlxalq sazişlər, göstərişlər çərçivəsində həyata keçirilir. Xüsusi diqqət Sovet dövründə pestisidlərin uzun müddətli istehsal və tətbiq olunduğu Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda köhnəlmiş pestisid qalıqları ilə bağlı problemlərin həllinə yönələcəkdir. Digər altı yeni DÜÇ ilə birlikdə α-HCH, β-HCH və Lindan (γ-HCH) da DÜÇ kimi Stokholm Konvensiyasına daxil edilmişdir.

## KONFRANS NƏŞRLƏRİ:

## Tezislər kitabı – Forumun materiallarına daxildir:

## Tezislərin hazırlanması və təqdim olunması (şifahi və poster təqdimat üçün):

Tezis qısa və 1800 işarədən çox olmamalıdır və aşağıda verilən nümunəyə uyğun hazırlanmalıdır:

> **Bolqarıstan Danube Regionunda Pestisidlərlə Su çirklənməsi**
> **Birinci, A.[1], İkinci, B.[2], Üçüncü, B.[1]**
> [1]Tədqiqat İnstitutu, Şəhər, Ölkə
> [2]Universitet Fakültə, Şəhər, Ölkə
>
> Tezis İngilis dilində, abzas olmadan yazılmalıdır və interval 1 olmalıdır. Yalnız standart ixtisarlardan istifadə edin. Tezisə istinad, şəkil və ya cədvəl daxil edilməməlidir. Şrift *Times New Roman,* ölçüsü *12,* kənarlardan məsafə *2.5 sm* olmalıdır. Tezisinizi yalnız e-mail və ya disk ilə təqdim edin. Tezisin təqdim olunması üçün son tarix **30 İyun, 2011-ci il**
> Şifahi və poster təqdimat üçün olan tezislər müəlliflərdən qəbul olunduqları orijinal formalarında nəşr olunacaqlar. Heç bir əlavə düzəlişlər edilməyəcəkdir. Tezislər kitabı 11-ci Forumun açılışında bütün Forum iştirakçılarına paylanacaqdır.

**İştirakçıların tam məqalələrindən ibarət – FORUM KİTABI və Forumun Qətnamə Sənədi Forumdan sonra IHPA internet səhifəsində *PDF* formatında İngilis dilində yerləşdiriləcəkdir.**

## Məqalələrin hazırlanması və təqdim olunması

## Şifahi və poster təqdimat üçün:

Məqalələr İngilis dilində yazılmalıdır. Məqalələr 5 səhifədən çox olmamalıdır, A4 formatda (210x297 mm), MS Word, Times New Roman şriftində, şriftin ölçüsü 12, interval 1, sağdan və soldan 25 mm, yuxarıdan və aşağıdan isə 30 mm. Məqalə aşağıda verilənlərdən ibarət olmalıdır:

**MƏQALƏNIN ADI**
Qalın, böyük hərflərlə, mərkəzdə
İnterval 2

***Müəllif(lər)in ad(lar)ı***
Qalın, kursiv, mərkəzdə
İnterval 2

*Müəllifin təmsil etdiyi müəssisənin adı*
Kursiv, adi hərflərlə, əgər institutların sayı birdən çox olarsa, müəlliflərə görə nömrələnməlidir.
İnterval 2

**Abstrakt**
Bütün məqalələr abstrakt ilə başlamalıdır. Abstrakt 300 sözdən çox olmamalıdır, qısa şəkildə məqalədə nədən bəhs olunduğundan, nəticələrin yekunundan ibarət olmalıdır. Yeni məlumatı nəzərə çatdırır və işin münasibliyini göstərir.
İnterval 2

**Açar sözlər**
5-10
İnterval 2

**Məqalə**
Müəlliflər məqalələrini onların məzmununa əsasən yazmalıdırlar, məsələn, giriş, bir və ya bir neçə fəsil/paraqraf və nəticələr. Bütün şəkillər və cədvəllər mətnlə əlaqəli, aydın və sadə olmalıdır, düzgün şəkildə nömrələnməli və nömrələnmə mətnə uyğun olmalıdır. Vahidlər BS-ə uyğun göstərilməlidir.
İnterval 2

**İstinad**
Qalın
İnterval 2

İstinadların mətni

Məqalələr Təşkilat Komitəsinə e-mail ilə g.aliyeva1@gmail.com ünvanına müəyyən olunmuş son tarixədək **31 Iyul 2011-ci il** göndərilməlidir.

**11-ci Forumun materialları**

Təqdim olunan məqalələr Forumdan sonra IHPA internet səhifəsində yerləşdiriləcəkdir. Materiallar müəlliflərdən qəbul olunduqları orijinal formalarında nəşr olunacaqlar. Heç bir əlavə redaktə edilməyəcəkdir. Müəlliflər tezislərin məzmununa görə tam məsuliyyət daşıyırlar.

**KONFRANSDA İŞTİRAK ŞƏRTLƏRİ VƏ ÖDƏNİŞ:**

Şifahi və ya poster təqdimatınızı Forum Proqramına daxil etmək üçün elektron Qeydiyyat Formasını təqdim etmək tələb olunur.

- Forumda qeydiyyat haqqı **€200 (iki yüz Avro)**.

  Qeydiyyat haqqı Forumun rəsmi internet səhifəsindən elektron qeydiyyat zamanı ödənilə bilər. Qeydiyyat haqqına Forumda bütün panellərdə iştirak, 3 gün ərzində kofe/çay fasiləsi, günorta yeməyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təşkil olunmuş rəsmi qarşılanma yeməyi, sahəyə səfər, aeroportda qarşılanma (Bakı-Qəbələ-Bakı xüsusi avtobus), Qəbələdə gəzinti, içərisində Tezislər kitabı olan "Forum çantası" və Forum bitdikdən sonra Forum Kitabının elektron versiyasının göndərilməsi daxildir.

- Qeydiyyat üçün son tarix **30 İyun 2011-ci il**

## VİZA TƏLƏBLƏRİ

15 Oktyabr 2010-cu ildə qüvvəyə minən yeni qanunvericiliyə əsasən xarici vətəndaşlar artıq viza ştampını hava limanında ala bilməyəcəklər. **Bununla əlaqədar, Azərbaycana səfər edən bütün xarici vətəndaşlar səfərdən öncə Viza üçün öz ölkələrində Azərbaycan Respublikası Səfirliyinə/ Konsulluğuna və ya yaxın qonşu ölkələrdə yerləşən Azərbaycan diplomatik nümayəndəliyinə müraciət edə bilərlər. Viza üçün təqdim olunan müraciət sənədlərinin baxılmasına tələb olunan vaxtın uzana biləcəyi səbəbindən, xahiş olunur ölkənizdə yerləşən Azərbaycan Respublikası nümayəndəliyinə tədbirdən 2-3 ay öncə müraciət edəsiniz.**

Elektron Qeydiyyat başa çatdıqdan sonra hər bir iştirakçı viza üçün rəsmi dəvətnamə məktubu alacaqdır. Bu məqsədlə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, g.aliyeva1@gmail.com elektron adresinə hər bir iştirakçı **öz pasportunun surətini, hazırkı iş yeri və vəzifəsi haqqında məlumat göndərməlidir**

**http://www.mfa.gov.az/eng/index.php?option=com_content&task=view&id=598&Itemid=1**

## FORUMUN KEÇİRİLƏCƏYİ MƏKAN VƏ OTELDƏ YERLƏŞDİRMƏ:

Forum Qəbələdəki, Qafqaz Riverside Otelində keçiriləcək.

http://www.qafqazriversidehotel.com/pages/DefaultEn.aspx

İkinci variant kimi Qəbələ Oteli nəzərdən keçirilir. Əlavə məlumat üçün aşagıdakı sayta daxil olun.
http://azhoteller.blogspot.com/2010/08/hotel-gabala.html

Hər iki oteldə Forum üçün xüsusi qiymətlər Forumun internet səhifəsində təqdim olunur. Otel rezervasiyası üçün **yalnız** elektron qeydiyyatından və tezis təqdim olunduqdan sonra g.aliyeva1@gmail.com ünvanına email göndərərək müraciət etmək xahiş olunur.

Bakı Hava limanında qarşılama və Qəbələ Otelə çatdırılma xidməti yalnız elektron qeydiyyat vasitəsi ilə Forumun internet səhifəsində həyata keçirilə bilər. Qarşılama və çatdırılma xidməti üçün iştirakçı öz uçuş detallarını (hava şirkətinin adı, reys nömrəsi, çıxma/Bakıya çatma vaxtı) dəqiqliklə qeydiyyat formasında göstərməlidir.

**Qeyd: Qarşılanma üçün Qeydiyyat Forması elektron şəkildə 30 İyun 2011-ci il tarixinədək doldurulub konfrans təşkilatçılarına təqdim olunmasa, hava limanında qarşılanma və Qəbələyə çatdırılma xidməti göstərilməyəcək.**

Konfrans Qafqaz Riverside Otelində keçiriləcək.

Tələbə Qonaq evləri Katibliyə müraciət ilə rezervasiya oluna bilər.

**Azərbaycanda yaşayan həmkarlardan xahiş olunur qeydiyyat zamanı telefon və email ünvanlarını göstərsinlər.**

**Növbəti elanlar tezisləri qəbul olunmuş iştirakçıların email ünvanlarına göndəriləcək.**

Keçid iqtisadiyyatını yaşayan ölkələrdən olan iştirakçılar üçün məhdud miqdarda maliyyə dəstəyi veriləcəkdir

## 11-ci FORUMUN İLKİN GÜNDƏLİYİ:

Forumun təşkilatçıları üç günlük iclas və bir günlük texniki ekskursiyadan ibarət olan dörd günlük proqram planlaşdırırlar.

**6 Sentyabr 2011**
İştirakçıların gəlməsi – qeydiyyat və yerləşdirilmə

GIZ, BMZ, IHPA, PAN Almaniya tərəfindən yenilənmiş və Sərgi Almaniyanın Bonn Şəhərində Federal Ətraf Mühit Agentliyi tərəfindən 14 yanvar - 11 fevral 2011-ci il tarixində COP-5 tədbirində nümayiş etdirilmiş "Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiyada köhnəlmiş və DÜÇ pestisidləri" Sərgisi Forum ərzində Qəbələyə gətiriləcək.

**7 Sentyabr 2011**
09:00 – 10:00 - Açılış mərasimi
10:00 – 13:00 - Təqdimatlar
13:00 – 14:00 - Nahar yeməyi
14:00 – 17:00 - Təqdimatlar
17.00 – 18.30 - Poster iclası
19:00 – Qəbul yeməyi

**8 Sentyabr 2011**
09:00 – 13:00 - Təqdimatlar
13:00 – 14:00 - Nahar yeməyi
14:00 – 17:00 - Təqdimatlar
17.00 – 19.00 - Poster iclası

**9 Sentyabr 2011:**
09:00 – 13:00 – Təqdimatlar, bağlanış mərasimi
13:00 – 14:00 - Nahar yeməyi

**10 Sentyabr 2011:**

Cəngidə yenidən bərpa olunmuş köhnəlmiş pestisidlərin basdırıldığı sahəyə səfər. İştirakçıların yola salınması

**TƏQDİMAT ÜÇÜN TARİXLƏRİN YEKUNU:**

Qeydiyyat – ***30 İyun 2011***
Tezislərin təqdim olunması - ***30 İyun 2011***
Məqalənin təqdim olunması - ***31 İyul 2011***

**ƏLAQƏLƏR**
Forumla bağlı suallarınız olduqda Katiblik ilə əlaqə saxlaya bilərsiniz

**Katiblik:**

**Gülçöhrə Əliyevə,**
**PhD, Lankaster Universiteti**
**UNEP - ECORES Analitik Ekoloji İnformasiya Agentliyi**
Phone: +994 (0) 50 215 49 11 (Azərbaycan)
+44 (0) 779 683 79 35 (Böyük Britaniya)
e-mail: g.aliyeva1@gmail.com
Skype: gulchohra.aliyeva

**Rəşad Allahverdiyev**
Tel: +99412 510 32 35
Mobile: +99450 389 62 72
Fax: +994 12 438 53 81
e-mail: az.mineco@gmail.com
Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi
100A, B.Ağayev küç. Bakı AZ 1073